# Qadın Dəstək Xətti

# HESABATI

2024

Ümidli Gələcək Sosial Təşəbbüslər İctimai Birliyi

"RELIABLE FUTURE" YOUTH PUBLIC UNION

ÜMİDLİ GƏLƏCƏK
SOSİAL TƏŞƏBBÜSLƏR İCTİMAİ BİRLİYİ

# Qadın Dəstək Xətti

2022-ci il İyul ayından etibarən Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, "Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyi və "Azercell Telekom" MMC-nin tərəfdaşlığı və maliyyə dəstəyi ilə yaradılan "Qadın Dəstək Xətt" xidməti psixoloji dəstəyə ehtiyacı olan, böhran və sosial təhlükəli vəziyyətdə yaşayan, məişət zorakılığı ilə üzləşən qadınlara 24/7 yardım və xidmət istiqamətində fəaliyyətini davam etdirir.

Qadın Dəstək Xəttin əsas məqsədi - Məişət zorakılığı ilə mübarizə istiqamətində effektiv psixoloji, emosional və sosial dəstəyin təşviq edilməsi və Zorakılıq qurbanlarının reabilitasiyası və cəmiyyətə reinteqrasiyasına kömək etmək üçün onlara birbaşa icma əsaslı hüquq klinikalarına, reabilitasiya mərkəzlərinə, sığınacaqlara, hüquqi məsləhət verən QHT-lərə yönləndirmək yolu ilə müvafiq yardım göstərilərək, qurban qadınlara və onların uşaqlarına həm qısamüddətli, həm də uzunmüddətli fərdi ehtiyaclarına cavab verəcək fəaliyyətin təşkilinə yönəlməsidir.

"Qadın Dəstək Xətti"nə müraciət edənlər peşəkar işçi heyəti tərəfindən hüquqi, tibbi xidmətlərə çıxış, məşğulluqla bağlı məlumatlandırılma, onların ailə və yaşayış şəraitinin qiymətləndirilməsi əsasında sosial dəstəklə təmin olunurlar. Eləcə də mərkəzin psixoloqları, sosial işçi və hüquqşünasları tərəfindən icma əsaslı hüquq klinikalarına, reabilitasiya mərkəzlərinə, sığınacaqlara yönləndirilmə, hüquqi məsləhətlə təmin olunurlar. Zəruri hallarda müvafiq dövlət qurumları, yerli strukturlar və sosial xidmət müəssisələri ilə əməkdaşlıq çərçivəsində müraciətlərin həllinə nail olunur. Qadın Dəstək Xətti aşağıdakı kateqoriyalar üzrə xidmət göstərir:

# XİDMƏT İSTİQAMƏTLƏRİMİZ

Azərbaycan Qadın Dəstək Xətt xidmətinin əsas iş prinsipi - məxfilikdir. Qadın Dəstək Xəttinə daxil olan bütün məlumatlar məxfi saxlanılır. Yalnız ehtiyac yarandıqda, əgər problemin həlli bunu tələb edirsə və müraciət edən buna razılıq verirsə, onun barəsində məlumat müvafiq təşkilat və şəxslərə ötürülə bilər.

- SOSİAL PROBLEMLƏRİN HƏLLİNƏ DƏSTƏK
- SIĞINACAĞA YÖNLƏNDİRMƏ
- DÖVLƏT QURUMLARI İLƏ ƏMƏKDAŞLIQ
- TELEFONDA PSİXOLOJİ DƏSTƏK
- MƏŞĞULLUQ PROBLEMLƏRİNİN HƏLLİNƏ DƏSTƏK
- HÜQUQİ YARDIM

# Müraciətlərin sahələr üzrə təsnifatı

Qadın Dəstək Xəttinə (QDX) 2024-cü il ərzində ümumilikdə 1623 müraciət daxil olmuşdur. Xidmət məişət zorakılığına məruz qalan qadınların problemlərinə operativ şəkildə reaksiya göstərmiş və müxtəlif kommunikasiya vasitələri ilə müraciətlərin qəbulunu təmin etmişdir. Aşağıda müraciətlərin daxilolma vasitələri və statistikasını əks etdirən məlumatlar təqdim olunur:

- Şəhər telefonu: Müraciətlərin əsas hissəsi telefon zəngləri vasitəsilə daxil olmuşdur.
- Sosial media platformaları: QDX-in sosial şəbəkələrdə aktivliyi müraciətlərin qəbulu üçün geniş imkanlar yaratmışdır.
- Mobil nömrə: Xüsusi olaraq təhlükəsiz müraciətlər üçün nəzərdə tutulmuş mobil tətbiq vasitəsilə də müraciətlər daxil olmuşdur.

Statistik məlumatlar müraciətlərin növünə, məzmununa və təcili yardım ehtiyacına görə təsnif olunaraq sistemləşdirilmişdir. Bu yanaşma hər bir müraciətə fərdi yanaşmanı təmin etməklə yanaşı, xidmətin effektivliyini artırmağa imkan vermişdir.



**Qadın Dəstək Xəttinə 2024-cü il ərzində 1623 müraciət daxil olub. Müraciətlər müxtəlif zorakılıq növlərinə və qadınların sosial problemlərinə uyğun olaraq kateqoriyalara bölünmüşdür. Aşağıda bu müraciətlərin növləri və sayları təqdim olunur:**

| MÜRACİƏTLƏRİN NÖVÜ | MÜRACİƏTLƏRİN SAYI |
|---|---|
| SIĞINACAQLA TƏMİN OLUNMA | 43 |
| MƏİŞƏT ZORAKILIĞI | 304 |
| BOŞANMA PROSESİNDƏKİ PROBLEMLƏR | 472 |
| SOSİAL- MADDİ RİFAHIN AŞAĞI OLMASI | 267 |
| HÜUQUQİ YARDIMA EHTİYAC | 495 |
| SƏHİYYƏ HÜQUQUNUN TƏMİN EDİLMƏSİ | 42 |

2024-cü il üzrə müraciətlərin müqayisəli təhlili

- Hüquqi yardıma ehtiyac: Bu kateqoriya ən çox müraciət alan sahədir. Hüquqi dəstək boşanma, məişət zorakılığı, aliment ödənişi və mülki hüquqlarla bağlı məsələlərdə qadınlar üçün xüsusi əhəmiyyət kəsb edir.
- Boşanma prosesindəki problemlər: Boşanma prosesində hüquqi və emosional dəstək ən çox tələb olunan xidmətlərdəndir. Bu, qadınların ailə problemləri zamanı təhlükəsizlik və hüquqi maariflənməyə böyük ehtiyac duyduğunu göstərir.
- Məişət zorakılığı: Zorakılığa məruz qalan qadınlar ən çox psixososial və təhlükəsizlik dəstəyi axtarır. Bu kateqoriya ciddi tədbirlərin görülməsini tələb edir, çünki hər bir müraciət arxasında təhlükəli vəziyyətlər dayana bilər.
- Sosial-maddi rifahın aşağı olması: İqtisadi çətinliklər qadınların özlərini və ailələrini təmin etməkdə çətinlik çəkdiyini göstərir. Bu, qadınların sosial yardım proqramlarına və iqtisadi dəstəyə çıxışını artırmaq ehtiyacını vurğulayır.
- Sığınacaqla təmin olunma: Məişət zorakılığı hallarında qadınların fiziki təhlükəsizliyi üçün sığınacaqlar mühüm əhəmiyyətə malikdir. Müraciətlərin nisbətən az olması qadınların sığınacaq xidmətləri haqqında kifayət qədər məlumatlı olmadığını göstərə bilər.
- Səhiyyə hüququnun təmin edilməsi: Bu sahədə müraciətlərin azlığı qadınların səhiyyə xidmətlərinə çıxışında problemlər yaşamadığını göstərə bilər. Lakin səhiyyə sahəsində dəstəyin əhatə dairəsi genişləndirilməlidir.



**Qeyd edək ki, Azərbaycan Qadın Dəstək Xətt xidmətinin fəaliyyəti yalnız zənglərin cavablandırılması ilə bitmir. Eyni zamanda hər il əhalinin məlumatlılığının artırılması, dəstək xəttə daha çox diqqətin cəlb edilməsi, zorakılığa məruz qalan qadınlar üçün əlçatanlığın təmin edilməsi məqsədilə dəstək xətt xidmətinin əməkdaşları tərəfindən müxtəlif maarifləndirilmə tədbirləri həyata keçirilir.**

**Bunları aşağıdakı kimi sıralamaq olar:**

Qadın Dəstək Xətt Xidmətinin sosial media səhifələrinin (İnstagram, Facebook) tanıtımı və inkişafı, həmçinin birgə fəaliyyətin qurulması məqsədi ilə sosial mediada 22.4 min izləyicisi olan və gender əsaslı zorakılıqla mübarizə aparan "Gender Hub Azerbaijan" sosial platforması ilə 2024-cü ildən əməkdaşlığa başlanılmışdır. Birgə əməkdaşlığa atılan ilk addım olaraq Qadın Dəstək Xəttinin tanıtım postu hər iki səhifədə paylaşılmışdır. Qadın zorakılığı ilə mübarizədə postların və məqalələrin hazırlanması üçün mütəmadi görüşlər keçirilir və bununla paralel olaraq Gender Hub tərəfindən onlara olunan müraciətlər bizə yönləndirilir. Həmçinin, QDX Xidmətinin İnstagram və Facebook səhifələrində daha çox izləyici kütləsinə çatmaq, əhali arasında tanınmaq və maarifləndirmə aparmaq məqsədi ilə psixoloji mövzularda postlar və videolar paylaşılıb reklam edilmişdir.

İl ərzində Qaynar Xəttin tanıtım proqramı çərçivəsində İnstagram və Facebook hesablarındakı izləyici
sayında ciddi artım müşahidə olunmuşdur:

İnstagram izləyicisi – 4261
Facebook izləyicisi – 408

# Cari il ərzində sosial media hesablarına ümumi giriş sayı 200 000-dən çox olmuşdur.

1.“Gələcəyi öz əllərinlə yarat” layihəsi çərçivəsində qadın cəzaçəkmə müəssisəsində təlim baş tutub. Azercell və “Ümidli Gələcək” İB Ədliyyə Nazirliyinin 4 saylı Qadın Cəzaçəkmə müəssisəsində təlim keçiblər. Penitensiar Xidmətin dəstəyi ilə baş tutan təlimə 100-ə yaxın qadın qatılıb. Təlimin əsas məqsədi məhbusların azadlığa çıxdıqdan sonra cəmiyyətə reinteqrasiyası, yenidən iş həyatına addımlamaları, karyera qurmaq imkanlarının artırılması idi.

https://www.instagram.com/reel/C42p0F5N-yk/?igsh=MXVqdHh6cTNxM2tjZQ==

2.“Qaynar xəttin əsas iş prinsipləri” mövzusunda Ailə, Qadın və Uşaq Problemləri Üzrə Dövlət Komitəsi tərəfindən dövlət qurumlarının əməkdaşlarına təlim keçirilib. Təlim zamanı Qadın Dəstək Əməkdaşları dəstək xəttinin tanıtımı həyata keçirmiş, dəstək xəttinin əsas fəaliyyət istiqamətləri və iş prinsipləri haqqında məlumatlar vermişdir.

https://family.gov.az/az/news/qaynar-xettin-esas-is-prinsipleri-movzusunda-telim-kecirilib?fbclid=IwZXh0bgNhZW0CMTAAAR3x-MtU6oo2hq2-20_c6M6bknbqLp7bQgNrIzw32S2hezZS-1-hDMmO8Es_aem_AWAuEgLoJRLGUN-9jkx-5Ffegre_pqOGMkL0MFlPrhPLrHIKROR2AXz7Xg9aHRmpEwA26fLgqkdCbKvXjctD-ErL

3. “Mentalitet yoxsa yoxsulluq? - qızların tam təhsil almasına nəyin mane olduğunu anlamaq” mövzusunda müsahibə
https://media.az/society/mentalitet-ili-bednost-media-az-razbiraetsya-chto-meshaet-devochkam-poluchit-polnoe-obrazovanie

4. “Qaynar xəttin əsas iş prinsipləri” mövzusunda Ailə, Qadın və Uşaq Problemləri Üzrə Dövlət Komitəsi tərəfindən dövlət qurumlarının əməkdaşlarına təlim keçirilib. Təlim zamanı Azərbaycan Uşaq Qaynar xəttinin əməkdaşları qaynar xəttin tanıtımı həyata keçirmiş, qaynar xəttin əsas fəaliyyət istiqamətləri və iş prinsipləri haqqında məlumatlar vermişdir.

https://family.gov.az/az/news/qaynar-xettin-esas-is-prinsipleri-movzusunda-telim-kecirilib?fbclid=IwZXh0bgNhZW0CMTAAAR3x-MtU6oo2hq2-20_c6M6bknbqLp7bQgNrIzw32S2hezZS-1-hDMmO8Es_aem_AWAuEgLoJRLGUN-9jkx-5Ffegre_pqOGMkL0MFlPrhPLrHIKROR2AXz7Xg9aHRmpEwA26fLgqkdCbKvXjctD-ErL

5. “Qaynar xəttin əsas iş prinsipləri” mövzusunda Ailə, Qadın və Uşaq Problemləri Üzrə Dövlət Komitəsi tərəfindən dövlət qurumlarının əməkdaşlarına təlim keçirilmiş növbəti təlim

https://family.gov.az/az/news/qaynar-xettin-esas-is-prinsipleri-movzusunda-novbeti-telim-kecirilib
https://www.facebook.com/share/v/1AzxLygEhW/?mibextid=KsPBc6

# Görüşlərin Foto Hesabatı


















İstatistikleri gör
Tekrar öne çıkar

ZORAKILIQ
BƏZƏN DƏ...
@qadin_destek_xetti
İstatistikleri gör
Tekrar öne çıkar


116111
Gündən, həftədən, aydan, ildən asılı olmayaraq, psixi sağlamlığınız həmişə vacibdir.
Azercell
İstatistikleri gör
Tekrar öne çıkar


Mənim başıma gəlməyib ki, mənə nə?!
Zorakılıq halları bitənə qədər bu hamımızın problemidir.
REALLIQ
116 111

Mənim başıma gəlməyib ki, mənə nə?!
Zorakılıq halları bitənə qədər bu hamımızın problemidir.
REALLIQ
116 111

Qadın_destek_xetti